***TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***
***ISSUES IN EDUCATIONAL MANAGEMENT***

*UOT 371*

***Sahib Əmirxan oğlu Məmmədov***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Mingəçevir Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının dosenti, əməkdar müəllim*

# TƏHSİLDƏ ÖNƏMLİ MƏSƏLƏ: TƏLƏBƏ AUDİTORİYASININ DÜZGÜN İDARƏ OLUNMASI

***Сахиб Амирхан оглы Мамедов***
*доктор философии по педагогике*
*доцент кафедры педагогики и психологии*
*Мингячевирского Государственного Университета, Заслуженный учитель*

# ВАЖНЫЙ ВОПРОС В ОБРАЗОВАНИИ: ПРАВИЛЬНОЕ УПРАВЛЕНИЕ СТУДЕНЧЕСКОЙ АУДИТОРИЕЙ

***Sahib Amirkhan Mammadov***
*doctor of philosophy in pedagogy*
*associate professor of department of Pedagogy and psychology*
*at Mingachevir State University, Honored teacher*

# AN IMPORTANT ISSUE IN EDUCATION: CORRECT STUDENT AUDIENCE MANAGEMENT

**Xülasə.** Ali təhsilin yüksək səviyyədə təşkili tələbə auditoriyasının düzgün idarəolunmasından çox asılıdır. Ölkəmizdə təhsilin idarə olunması və məktəbə rəhbərlik məsələlərinə, məktəbşünaslıq problemlərinə aid bir çox kitab və kitabçalar, dissertasiyalar, məqalələr yazılmışdır. Bu məqalədə tələbə auditoriyasının idarə olunmasının bəzi məsələlərindən danışılır.

***Açar sözlər:*** *auditoriya, tələbə auditoriyası, tələbə auditoriyasının idarə olunması, təhsildə vacib məsələ, idarəetmədə müəllimin rolu*

**Резюме.** Организация высшего образования на высоком уровне во многом зависит от правильного управления студенческой аудиторией. В нашей стране написано множество книг и брошюр, диссертаций и статей, связанных с вопросами управления образованием и школьным управлением, проблемами учебного процесса. В данной статье рассматриваются некоторые вопросы управления студенческой аудиторией.

***Ключевые слова***: *аудитория, студенческая аудитория, управление студенческой аудиторией, важная проблема образования, роль преподавателя в управлении.*

**Summary.** The organization of higher education at a high level largely depends on the proper management of the student audience. In our country, many books and brochures, dissertations and articles have been written related to issues of educational management and school management, problems of the educational process. This article discusses some issues of student audience management.

***Key words***: *audience, student audience, student audience management, important problem of education, role of the teacher in management.*

Tədqiqatlardan, müşahidə və sorğulardan görünür ki, ali təhsilin yüksək səviyyədə təşkili xeyli dərəcədə tələbə auditoriyasının düzgün idarəolunmasından asılıdır. Respublikamızda

təhsilin idarə olunması və məktəbə rəhbərlik məsələlərinə, məktəbşünaslıq problemlərinə həsr edilmiş bir sıra kitab və kitabçalar, dissertasiyalar, məqalələr yazılmışdır. M.M. Mehdizadə, A.O. Mehrabov, R. Məmmədzadə, P.B. Əliyev, N. Əhmədov, A. Abdullayev və R. Cabbarov, L.K. Cəfərova, İ.M. Novruzlu, H.O. Ocaqov, Ə.A. Kəlbəliyev, Ş.A. Baxışova və K.R. Məmmədova, Ş. Qəribov, İ. Əsədova, T.M. İsmayılov və X.K. Qurbanov, Ş.N. İsmayılov, M.S. Kazımov, F.Y. Kərimova, Ə. Quliyev, R.X. Məcidbəyli, F. Məmmədov, S.M. Məmmədov, S. Rəsulov, S. Rəşidov, O.H. Rzayev, S.M. Məmmədov və Ş.N. İsmayılov, N.D. Verdiyev; xarici ölkələrdə Q.V. Dimitrenko, Q.Q. Yeremeyeva, V.V. Maskin, M.İ. Kondakov, M.V. Kondrux, Q.M. Polyanskaya, E.F. Filippova, N.A. Şaray və başqaları öz əsərlərində məktəbşünaslığın aktual məsələlərini diqqət mərkəzinə gətirmiş, qabaqcıl təcrübəni təhlil etmiş, məktəbdaxili rəhbərliyin və nəzarətin təşkili, kollegial orqanların (pedaqoji şura və s.) işi, təhsil müəssisəsinin fəaliyyətinin planlaşdırılması, dərs cədvəli, pedaqoji əməyin elmi təşkili, məktəb sənədlərinin hazırlanması və s. məsələlərə diqqət yetirmişlər.

Qrup və kollektivin (o cümlədən tələbə qrupunun və tələbə kollektivinin – S.M.) idarə edilməsi terminini birinci dəfə K. Levin diqqət mərkəzinə gətirmişdir. Sonralar F. Beyls, E. Boqradus, V.V. Davıdov, Q. Xommans, F. Lippit, A.V. Petrovski, K.K. Platonov və B.F. Puzşnev kollektivin idarə edilməsi probleminə müraciət etmişlər.

Ölkəmizdə Ə.S. Bayramov, B.H. Əliyev, Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev və b. demokratik idarəetmə problemlərini psixoloji istiqamətdə tədqiqi etmişlər.

Prosessorlar M.Ə. Muradxanov, H.M. Əhmədov, Ə.Ə. Ağayev, Ə.Ş. Həşimov, Y.R. Talıbov, N.M. Kazımov, A.N. Abbasov, F.A. Rüstəmov, H.Ə. Əlizadə, L.N. Qasımova, F.B. Sadıqov, F.N. İbrahimov, R.L. Hüseynzadə, H.K. Həsənov, R.M. Mahmudova, Q. Abbasova, M. İsmixanov, T. Dadaşova, Q.N. Qəhrəmanova və b. "Pedaqogika", "Məktəb pedaqogikası", "Ali məktəb pedaqogikası", "Sosial pedaqogika" dərsliklərində ümumtəhsil məktəblərinin, kolleclərin, institut və universitetlərin idarə olunması, onlara rəhbərliyin nəzəri və praktik problemləri araşdırılmış, haqqında söz açılan məsələlərin səmərəliliyinə nail olmağın yolları göstərilmişdir.

Tədqiqatlar göstərir ki, idarəetmə tələbələrin şüuruna, fəaliyyətinə və davranışına təsir və qarşılıqlı təsir formasıdır. Qarşılıqlı təsir müəyyən nəticənin qazanılmasında başlıca rola malikdir. İdarəetmədə məqsədyönlülük mühüm məsələdir.

Mövcud ədəbiyyatla tanışlıqdan görünür ki, "İdarəetməyə insan fəaliyyətin xüsusi bir növü kimi – insanların insanlar tərəfindən idarə olunması kimi yanaşılır. Müasir dövrdə idarəetmə obyekti kimi insanın rolu artır. Məqsəd müdafiə olunmaq, hüquq və maliyyə təminatı almaq imkanına nail olmalı, ictimaiyyət tərəfindən dərk edilməli və müdafiə olunmalıdır" [1].

İdarəetmə nəzəriyyəsi aşağıdakı sual cavab verməyi tələb edir: ali təhsil müəssisəsində rəhbərin mövqeyi nədən ibarət olmalıdır, onun səlahiyyətləri və məsuliyyət dərəcəsi nədir, təhsil müəssisəsinin quruluşu necə olmalıdır? İdarəetmə "təşkiletmənin (təşkilatın) nəzəriyyəsi" və həm də "idarəetmənin nəzəriyyəsi" kimi elmi və tədris fənnini özündə ehtiva edir.

Auditoriyanın idarə edilməsi zamanı bəzi metodlardan istifadə olunur. Məqsəd tələbə auditoriyasının idarəolunma prosesini səmərəli qurmaqdır. Bu vaxt təhsillə bağlı sərəncamlardan və hökumətin qərarlardan, təhsildəki yeniliklərdən, tələbələrin təlim əməyinin təşkilinin səmərəli formalarından bəhrələnmək lazımdır.

İdarəetmə məqsədyönlü, sistemli və planlı xarakterdə olmalıdır. Təlim prosesində müəllimin inzibatçılıq və amirlik üsullarına arxalanması, ənənəvi təlim metodları ilə təlim prosesini aparması, mühazirələri yalnız özünün şərhinə əsasən oxuması, informasiya kommunikasiya texnologiyalarına, innovasiyalara müraciət etməməsi, təhsil sistemindəki son məlumatlardan, fənninin tədrisi metodikasına aid yeniliklərdən xəbərsiz olması auditoriyanın idarə edilməsinə yaxşı təsir göstərmir.

Prof İ.H. Cəbrayılov təhsilin idarə edilməsi ilə bağlı müəyyən prinsiplərə əməl olunmasını məqsədəuyğun sayır. Həmin prinsiplərlə tanış olaq:

"1. Təhsilin, pedaqoji prosesin idarə olunmasının demokratikləşdirilməsi və humanistləşdirilməsi;

2. Təhsilin humanist xarakteri, insanların həyat və sağlamlığının, şəxsiyyətin azad inkişafının, mənəvi keyfiyyətlərin; üstünlük təşkil etməsi, vətənə, millətə, dövlətə sevgi, vətəndaşlıq tərbiyə olunması;

3. Təhsil və tərbiyə prosesinin vəhdətini nəzərə alaraq, milli mənəviyyatın qorunması;

4. İdarəetmədə elmilik, nəzəriyyə və təcrübənin əlaqələndirilməsi;

5. İdarəetmədə planlılıq;

6. İdarəetmədə səmərəliliyə, yekun nəticələrə nail olmaq meyli" [2, s. 175].

Tələbə auditoriyasının yaxşı idarəetmə olunması üçün idarəetmə fəlsəfəsinə dərindən bələd olmaq lazımdır. İdarəetmə fəlsəfəsi aşağıdakı məsələləri nəzərdə tutur: "1. Aksioloji problem, sosial dəyərlər sistemində idarəetmənin təhlilini nəzərdə tutur. Belə ki, idarəetmənin məqsədi fərdin dəyərlərindən kənarda, sosial qruplar sistemindən və cəmiyyətin özündən kənarda mövcud deyil, mövcud ola da bilməz.

2. İdarəetmə fəlsəfəsi idarəetmənin sosial-dəyişdirici və sosial-inteqrativ funksiyalarının təhlilini aparır. Bu, isə çox mürəkkəb fəlsəfi mədəniyyət və hər şeydən öncə, sosial fəlsəfə çərçivəsi daxilində mümkündür.

3. İdarəetmənin şəxsləndirmə və şəxsləndirilmə problemi nə fəlsəfi biliksiz, nə də sosial-fəlsəfi təhlil əsasında mümkündür.

4. İdarəetmə təsiri vasitəsi kimi informasiyanın fəlsəfi təhlili.

5. İdarəetmə və özünütəşkilin, insan və cəmiyyətin təbii və sosial özünütəşkilinin uyğunlaşdırılması, uzlaşdırılması.

6. İdarəetmə və zorakılığın; idarəetmə və hakimiyyətin; idarəetmə və azadlığın; idarəetmə və ədalətin; idarəetmə və həmrəyliyin; idarəetmə və təhsilin uyğunlaşdırılması.

İdarəetmə fəlsəfəsinin tədqiqat vəzifələrinin strukturuna və problemlərinə həm də insanla, onun təfəkkürü, təbiəti və həyatının mənası ilə bağlı olan başqa məsələlər də daxildir" [3].

Təhsilin idarə olunması məsələlərinə pedaqogika və psixologiya elmləri ilə yanaşı psixologiyada münasibət bildirilmişdir. Psixoloqlardan prof. M.Ə. Həmzəyevi nümunə göstərmək mümkündür. Professor "Yaş və pedaqoji psixologiyanın əsasları" dərs vəsaitində başqa məsələlərlə yanaşı həm də təhsilin idarə olunması məsələlərinə münasibət bildirmişdir. Professor dərs vəsaitinə problemi əhatə edən "Pedaqoji kollektiv və ona rəhbərliyin bəzi psixoloji məsələləri" adlı xüsusi paraqraf daxil etmişdir. Paraqrafda pedaqoji kollektivə rəhbərlik (kollektivin təşkili; müəllimlərin qarşılıqlı münasibətləri və pedaqoji kollektivdə psixoloji iqlim; pedaqoji kollektiv; məqsəd yönəlişliyi; kollektivin fəallaşdırılması); kollektivin işinin optimallaşdırılması (kollektivin birliyi; özünüidarəetmənin inkişafı) və s. məsələlərə diqqət mərkəzində dayanmışdır.

M.Ə. Həmzəyevin aşağıdakı fikirləri diqqəti cəlb edir: "Pedaqoji kollektiv üzvlərinin şagirdlərə (bizim tədqiqatda tələbələrə - S.M.) ustanovkası, tərbiyənin məqsədini, şagirdə təsiretmə metodunu, şagirdlərlə qarşılıqlı münasibət üslubunu və s. aid etmək olar. Əgər pedaqoji kollektivin üzvləri arasında bu məsələlərdə vahidlik yoxdursa, vahidlik prinsipi pozulmuşsa, kollektivdə bir sıra xəstəliklərin (müəllimlər arasında münaqişə, qısqanclıq, paxıllıq və s.) yaranması baş verə bilər ki, bu da məktəbdə təlim-tərbiyə işinin müvəffəqiyyətinin aşağı düşməsinə, müəllimlərin əhvalına təsir göstərir. Burada pedaqoji kollektivdəki psixoloji iqlim mühüm rol oynayır [4, s. 208].

Biz tələbələrin auditoriyanın idarəolunmasına münasibətini öyrəndik. Aşağıdakı cədvəl bu barədə təsəvvür yaradır.

| Aydınlaşdırmaq istədiyimiz məsələlər | səviyyələr (nəfərlə) | | | | | |
|---|---|---|---|---|---|---|
| | Yüksək | | orta | | aşağı | |
| | Eks. | Kont. | Eks. | Kont. | Eks. | Kont |
| 1. Müəllimlərin davranışının pedaqoji etikanın tələblərinə uyğunluq səviyyəsi | 62 | 53 | 33 | 34 | 13 | 25 |
| 2. Pedaqoji ünsiyyətinin səviyyəsi | 61 | 50 | 35 | 32 | 11 | 27 |
| 3. Nitq mədəniyyətinin səviyyəsi | 63 | 52 | 36 | 36 | 9 | 21 |
| 4. Müəllim-tələbə münasibətlərini qurmaq səviyyəsi | 65 | 55 | 38 | 35 | 8 | 16 |
| 4.1. ciddilik və tələbkarlıq | 62 | 54 | 34 | 33 | 12 | 22 |
| 4.2. qayğıkeş, səmimi və mehriban münasibət | 64 | 53 | 35 | 36 | 9 | 20 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 4.3. tələbənin şəxsiyyətinə hörmətli münasibət, onun qayğıları ilə maraqlanmaq | 67 | 57 | 33 | 35 | 7 | 17 |
| 5. Pedaqoji qabiliyyətlərinin səviyyəsi | 64 | 56 | 32 | 39 | 12 | 14 |
| 6. Nəzəri hazırlığının səviyyəsi | 63 | 53 | 31 | 29 | 14 | 27 |
| 7. Metodik hazırlığının səviyyəsi | 65 | 53 | 30 | 30 | 13 | 26 |
| 8. Pedaqoji ustalığının səviyyəsi | 64 | 55 | 33 | 32 | 11 | 22 |
| 9. Pedaqoji takta yiyələnmə səviyyəsi | 63 | 54 | 31 | 35 | 14 | 20 |
| 10. Pedaqoji texnikaya yiyələnmə | 63 | 52 | 30 | 34 | 15 | 23 |
| 11. İnnovasiyalardan, informasiya kommunikasiya texnologiyalarından istifadəetmə istiqamətindəki fəaliyyətinin səviyyəsi | 61 | 50 | 29 | 37 | 18 | 22 |
| 12. Nəzəriyyə və praktikanı əlaqələndirmə bacarığı | 64 | 53 | 32 | 29 | 12 | 27 |
| 13. Yeni təlim metodlarından xəbərdarlıq səviyyəsi və onlardan faydalanmaq bacarığı | 62 | 56 | 29 | 20 | 17 | 29 |
| 14. Təlimin prinsiplərindən xəbərdarlıq səviyyəsi və onlardan faydalanmaq bacarığı | 65 | 59 | 30 | 26 | 12 | 24 |
| 15. Təlim prosesini idarəetmə səviyyəsi | 67 | 54 | 32 | 27 | 9 | 28 |
| 16. Auditoriyada müəllim-tələbə münasibətlərinin səviyyəsi | 66 | 58 | 31 | 28 | 11 | 23 |
| 17. Auditoriyadankənar tədbirlərdə müəllim-tələbə münasibətlərinin səviyyəsi | 64 | 55 | 35 | 29 | 9 | 25 |
| 16. Auditoriyadankənar tədbirlərin idarəolunması zamanı müəllim-tələbə münasibətlərinin səviyyəsi | 68 | 53 | 29 | 33 | 12 | 23 |
| 17. Müəllimin geyiminin pedaqoji tələblərə uyğunluğu | 62 | 50 | 32 | 27 | 14 | 32 |
| 18. Müəllimin mühazirə zamanı əsas mövzudan yayınmaması, diqqətini başlıca məsələlərə yönəltməsi | 64 | 51 | 31 | 36 | 13 | 22 |
| 19. Müəllimin nitqinin yeknəsək deyil, sistemli qurularaq aydın, rəvan, məntiqli və sübutlu olması | 66 | 53 | 34 | 29 | 8 | 27 |

*Qeyd: eksperimental qruplardan - 108, kontrol qruplardan - 109 tələbə sorğuya cəlb olunmuşdur.*

Cədvəldən göründüyü kimi, tələbələr eksperimental qruplardan olan 62 müəllimin davranışının pedaqoji etikanın tələblərinə uyğunluq səviyyəsinin – yüksək, 33 nəfərinin – orta, 13 nəfərinin aşağı; kontrol qruplardan olan 53 nəfər müəllimin səviyyəsinin yüksək, 34 nəfərinin – orta, 27 nəfərinin aşağı səviyyəli olduğunu bildirmişlər.

Pedaqoji ünsiyyətinin səviyyəsi aşağıdakı şəkildədir: yüksək – 61/50; orta – 35/32; aşağı səviyyə - 11/27.

Tələbələrin qənaətincə, müəllim-tələbə münasibətlərini qurulma səviyyəsi aşağıdakı nisbətdədir: yüksək – 65/55; orta – 38/35; zəif – 8/16.

Eksperimentə iştirak edən müəllimlərdə pedaqoji qabiliyyətlərinin səviyyəsi - 64 nəfərdə - yüksək, 32 nəfərdə – orta, 12 nəfərdə - zəif səviyyədə; kontrol qruplarda fəaliyyət göstərən müəllimlərin 56 nəfərində - yüksək, 39 nəfərində - orta, 14 nəfərində aşağı səviyyəlidir.

Tələbələrin fikrincə, nəzəri hazırlığının səviyyəsi aşağıdakı nisbətdədir: yüksək – 63/53; orta – 31/29; zəif – 14/27 nəfər müəllimdə; metodik hazırlığının səviyyəsi yüksək 65/53; orta – 30/30; zəif – 13/26 nəfər müəllimdə; pedaqoji ustalığının səviyyəsi yüksək – 64/55; orta – 33/32; zəif – 11/22 nəfər müəllimdə; innovasiyalardan, informasiya kommunikasiya texnologiyalarından istifadəetmə istiqamətindəki fəaliyyətinin səviyyəsi yüksək – 61/50; orta – 29/37; zəif 18/22 nəfər müəllimdə özünü büruzə verir.

Tələbələrin göstərdiklərinə görə, eksperimentdə iştirak edən müəllimlərin 67 nəfəri – yüksək, 32 nəfəri – orta, 9 nəfəri zəif; kontrol qruplardan olan müəllimlərin 54 nəfəri – yüksək, 27 nəfəri – orta, 28 nəfəri – aşağı səviyyədə təlim prosesini idarə etməyə qabildir.

Eksperimentdə iştirak edən müəllimlərin 68 nəfəri - yüksək, 29 nəfəri – orta, 12 nəfəri zəif; kontrol qruplardan olan müəllimlərin 53 nəfəri – yüksək, 33 nəfəri – orta, 23 nəfəri – aşağı səviyyədə auditoriyadankənar tədbirlərin idarəolunması zamanı müəllim-tələbə münasibətlərini qurmağı bacarır.

Eksperimental qruplardan olan müəllimlərin 66 nəfəri – yüksək, 34 nəfəri – orta, 8 nəfəri – aşağı səviyyədə öz nitqini yeknəsək deyil, sistemli qurur, onların nitqi aydın, rəvan, məntiqli və sübutludur.

Kontrol qruplardan olan müəllimlərin isə 53 nəfəri – yüksək, 29 nəfəri – orta, 27 nəfəri – aşağı səviyyədə öz nitqini yeknəsək deyil, sistemli qurur, onların nitqi aydın, rəvan, məntiqli və sübutludur.

O biri göstəricilərlə də cədvəldən tanış olmaq mümkündür.

**Problemin aktuallığı**. Tələbə auditoriyasının düzgün idarəolunması həmişə aktuallığı ilə qarşıda dayanmışdır.

**Problemin yeniliyi**. Tələbə auditoriyasının düzgün idarəolunması müasir şəraitdə də özünəməxsus elmi yeniliyə malikdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə doktorantlar və magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**


1. Управление. https://ru.wikipedia.org/wiki/Управление
2. Cəbrayılov İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı: Mütərcim, 2011, 220 s.
3. http://help-studenty.ru/?p=8
4. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Adiloğlu, 2003, 282 s.


**E-mail**: mehdiyevaulviyya@gmail.com

**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov**,
ped.ü.fəls.dok. **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 18.09.2023